# GERÇƏKLİKDƏN İLĞIMA QƏDƏR



*Ziyadxan ƏLİYEV,*
*Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

*(Əvvəli ötən sayımızda)*

1988-ci ildən Türkiyədə məskunlaşmaqla mühacirət həyatına başlayan Tanriyelin taleyini əsasən buradakı Manavqat şəhəri ilə bağlamasını da haradasa "alın yazısı" - Allahın lütfü hesab etmək olar. Belə ki, onun burada Dədəxan Mədəniyyət Evinin sahibi Zeynal Ərtəkin ilə tanışlığı rəssamın yaradıcılığında yeni səhifənin yazılışını şərtləndirmişdir. Bu gün həmin mədəniyyət ocağının Sənət Qalereyasında nümayiş olunan və müəllifin yaradıcılığı üçün "yeni səhifə" kimi dəyərləndirdiyimiz rəngkarlıq əsərlərinin əsasən dinlə bağlı olmasının həm də Azərbaycan təsviri sənəti üçün əvvəllər çox az rast gəlinən mövzu olduğunu vurğulamaqla, Tanriyelin ərsəyə gətirdiyi altmışa qədər tablonu sözün əsl mənasında milli bədii-mənəvi irsimizə böyük töhfə olduğunu desək, həqiqəti söyləmiş olarıq. Uzun illər ərzində məhz bu unikal rəngkarlıq nümunələrinin sayəsində Türkiyənin turizm mərkəzlərindən hesab olunan Manavqatın diqqətçəkən və qələbəlik duyulan mədəniyyət ocağına çevrilməsi də hamının etiraf etdiyi həqiqətdir...

Tanriyel Əliyevin Manavqat ünvanlı əsərlərini dəyərləndirməzdən əvvəl, onun yaradıcılığının "Əsgərlik mərhələsi"ndən sonra ərsəyə gətirdiyi müxtəlif bədii nümunələrin estetik xüsusiyyətləri barəsində söz açsaq, müəllif haqqında başladığımız ağrılı söhbətin nisbi də olsa tamamlandığını söyləmək mümkündür.

Öncə qeyd etmək lazımdır ki, bu bədii irs mövzu və janr etibarilə kifayət qədər əhatəlidir. Bura müəllifin "Avtoportret"indən başlayaraq, onun yaxınlarının, şərəfli ömür yolu Azərbaycan tarixinin uzaq-yaxın dövrünə təsadüf edən məşhur şəxsiyyətlərin obrazları, ən nəhayət, çoxsaylı dini mövzuları əhatə edən motivlər daxildir. Heç şübhəsiz, verəcəyimiz dəyərləndirmə də əsasən onların bədii şərhində müşahidə olunan özünəməxsus xüsusiyyətlərlə bağlı olacaqdır.

Rəssamın bədii irsində diqqətçəkən məqamlardan biri onun adları hər kəsə bəlli olan məşhurların obrazlarına müraciət etməsi, onların ömür yollarından qaynaqlanan mənəvi-psixoloji yaşantılarına cəlbedici və yaddaqalan görkəm verə bilməsidir. Bu mənada müəllifin obrazları sırasında Əhməd Yasəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Yunus Əmrə, Dədə Qorqud, Ömər Xəyyam, Məhəmmədhüseyn Şəhriyar, Məhəmməd Füzuli, Səttar Bəhlulzadə, Niko Pirosmani və digərlərinin adlarını çəkmək olar. Bu portretlərin bəzilərində həmin tanınmış şəxsiyyətlərin zamanında ictimailəşmiş obrazlarını səciyyələndirən ikonoqrafik əlamətlərlə səsləşən məqamlar rast gəlinsə də, bütünlükdə, bu bədii nümunələrin bilavasitə Tanrıyel Əliyev təxəyyülündən qaynaqlanan bədii şərhlə də səciyyələndiyini söyləmək mümkündür.

Rəssamın əsgərlik sonrası ərsəyə gətirdiyi nümunələrin əksəriyyəti kimi bu əsərlərin də bədii şərhində müşahidə etdiyimiz realist-gerçəkçi ifadə tərzinin həm də onun malik olduğu bədii-texniki potensialla bağlı olduğunu qeyd etməliyik. Əlbəttə, bunun təkcə rəssamın bədii imkanları ilə bağlı olduğunu dilə gətirmək məsələyə birtərəfli yanaşma olardı. Belə ki, bu cür yanaşma həm də müəllifin obrazları səciyyələndirən mənəvi-psixoloji və fiziki xüsusiyyətlərin daha inandırıcı və təsirli təqdimatında önəmli rol oynamışdır.

Yeri gəlmişkən qeyd edək ki, rəssam mövzusundan və janrından asılı olmayaraq, hər bir əsərinə gözlənilməz bədii yanaşma hesabına cəlbedici obrazı verməyə nail olmuşdur. Bu mənada onun "Xudafərin körpüsü", "Yelləncək", "Adəm və Həvva" və digər rəngkarlıq tablolarının adını çəkmək olar. Bu lövhələrdə müəllifin hadisə və obrazlara yönəli baxış nöqtələrinin özünəməxsusluğu qarşılığında kətan üzərində gerçəkləşən bədii görüntülərin kifayət qədər cəlbedici və ovsunlayıcı qəbulu təbii hesab olunur.

Yuxarıda vurğuladığımız realist-gerçəkçi bədii şərhin Tanrıyel Əliyevin dinlə bağlı olan tablolarında da tətbiqini məntiqli hesab etmək mümkündür. Heç şübhəsiz, bunu da müəllifin məşhur dini şəxsiyyətlərin və onlarla bağlı olan müxtəlif hadisələrin tamaşaçı daha cəlbedici və anlaşıqlı olması istəyi ilə bağlamaq olar.

Qənaətimizcə, milli təsviri sənətimizdə bu vaxta kimi bədiiləşdirilməyən dini mövzuların bir-birindən fərqli formata malik tablolarda əyaniləşdirilməsi həm də müəllifdən böyük məsuliyyət tələb edən yaradıcılıq məsələsi idi. Ədalət naminə onların ərsəyə gətirilməsində Dədəxan Mədəniyyət Evinin müstəsna rolunun olduğunu da mütləq üçün qeyd etməliyik. Rəssamın həmin mədəniyyət ocağının sahibi Zeynal Ərtəkinlə tanışlığını isə sadəcə Allahın lütfü kimi dəyərləndirmək lazımdır. Başqa sözlə desək, bu təmas baş verməsəydi, yəqin ki, bu qədər əhəmiyyət verdiyimiz sənət nümunələri də yaranmazdı...

Ümumi sayı altmışa çatan həmin əsərlərdə adları dini məkanı, islam tarixini bəzəyən görkəmli şəxsiyyətlər, onların dinin yayılması və qorunması yönündə göstərdikləri fədakarlıqlar inandırıcı bədii təcəssümünü tapmışdır. Həm az, həm də çoxfiqurlu komozisiyalarda hər bir formatın bədii dominantlığını əldə edən müəllifin, bununla da müxtəlif məna-məzmun çəkili rəngkarlıq tablolarını gözoxşayan və özünəməxsus estetik yük daşıyıcısına çevirə bilməsi danılmazdır.

Qənaətimizcə, rəssamın "Nuh peyğəmbərin tufanı", "Kərbəla faciəsi", "Merac öncəsi sorğulanma", "Merac", "İmam Hüseyn (ə) şəhadəti", "Hz.Məhəmmədin son Həccə gedişi", "İbrahim peyğəmbərin (s) oğlunu qurban verməsi" və digər neçə-neçə tablosunda müşahidə olunanların cəlbedici, təsirli və düşündürücü görkəm almaları, ilk növbədə, müəllifin yüksək icra sənətkarlığı nümayiş etdirməsinin sayəsində baş vermişdir. Kompozisiyaların tərtibində istifadə olunan fiqurların, müxtəlif biçimli geyim elementlərinin və digər çoxsaylı ayrıntıların bütün mənalarda inandırıcı təqdimatındandır ki, bu əsərlər onların hər biri haqqında müəyyən bilgisi olan tamaşaçını duyğulandırmaq gücündədir. Biz Tanrıyel Əliyevin dini süjetli bu kompozisiyalarını orta əsrlərdə yaşayıb-yaratmış məşhur Avropa sənətkarlarının əsərləri ilə müqayisə etməkdən uzaq olsaq da, deməliyik ki, Azərbaycan rəssamı onların ərsəyə gətirdikləri məlum motivlərə özünəməxsus yanaşma sərgiləmiş, kompozisiya baxımından tarixə qovuşmuş sənət incilərindən heç də geri qalmayan rəngkarlıq nümunələri yaratmağa nail olmuşdur. Odur ki, qətiyyətlə, Tanrıyel Əliyevin dinlə bağlı olan və Azərbaycan ictimaiyyətinə tanış olmayan irsinin də zamansızlığa və məkansızlığa qovuşduğunu söyləmək mümkündür...

Tanrıyel Əliyev ünvanlı yuxarıdakı dəyərləndirməni yekunlaşdırmalı olsaq, onda adı indiyə qədər yazılmış Azərbaycan təsviri sənət tarixində yer almayan rəssamın bədii irsinin milli bədii irsimizdə oxşarının olmadığını xüsusi vurğulamaq istərdik. Onu qətiyyətlə Azərbaycan mühacirət rəssamlığının ən parlaq simalardan hesab etmək olar. Heç şübhəsiz, bunu şərtləndirən başlıca məziyyət rəssam yaradıcılığının bütün mənalarda digərlərindən fərqli olmasıdır. İlk əsərlərindən başlayaraq rəmzi-şərti ifadə orijinallığına səy göstərən Tanrıyel Əliyevin bu bədii coşğunluğu və ifadə gözlənilməzliyini realist-gerçəkçi tutumlu rəngkarlıq tablolarında da davam etdirməsi, qənaətimizcə, hər şeydən öncə onun ruhunda gəzdirdiyi yaratmaq gücünün nəhayətsizliyinin nəticəsidir. Elə bunun nəticəsidir ki, həmin əsərlər mövzusundan və janrından asılı olmayaraq, onun "tanınma nişanı"na çevrilmişdir. Bunu hər bir sənətkarın bütün yaradıcılığı boyu arzulaması da danılmazdır. Bu mənada artıq dünyada olmayan Tanrıyel Əliyev (1949-2012) bədii irsinin də əbədiyyətə qovuşduğu birmənalıdır...

***2023***